**“Əmanət lotereyası” stimullaşdırıcı tirajlı lotereyanın şərtləri**

## 1. Ümumi məlumat

1.1. Lotereya təşkilatçısının adı: ASC “Xalq” Bankı
1.2. Stimullaşdırıcı lotereya təşkilatçısının VÖEN-i: 2000296061
1.3. Stimullaşdırıcı lotereya təşkilatçısının hüquqi ünvanı: AZ1065, Bakı şəhəri, Yasamal rayonu, 494-cü məhəllə, İnşaatçılar prospekti, 22 L, tel.: (+994 12) 404-43-43;
1.4. Stimullaşdırıcı lotereya təşkilatçısının müvafiq fəaliyyət növünün adı: bank
1.5. Lisenziyanın qeydiyyat nömrəsi: 246 saylı
   1.5.1. Verilmə tarixi: 27 dekabr 2004-cü il
   1.5.2. Qüvvədə olma müddəti: müddətsiz
   1.5.3. Təqdim edən orqanın adı: Azərbaycan Respublikasının Mərkəzi Bankı
1.6. Stimullaşdırıcı lotereyanın adı: “Əmanət lotereyası”
1.7. Stimullaşdırıcı lotereyanın keçirilmə forması: tirajlı
1.8. Stimullaşdırıcı lotereyanın keçirilmə müddəti: 01 aprel 2026-cı il – 30 dekabr 2026-cı il
1.9. Stimullaşdırıcı lotereyanın tirajları üzrə uduş fondunun oynanılma tarixləri: birinci tiraj üzrə 10.07.2026-cı il, ikinci tiraj üzrə 12.10.2026-cı il, üçüncü və dördüncü tirajlar üzrə 12.01.2027-ci il
1.10. Stimullaşdırıcı lotereyanın keçirilmə yeri: Azərbaycan Respublikasının ərazisi
1.11. Stimullaşdırıcı lotereyanın keçirilmə məqsədi: Əmanət məhsulları üzrə satışın stimullaşdırılması
1.12. Lotereyanın obyekti: AZN və USD valyutaları üzrə yerləşdirilmiş əmanət müqavilələri (Uşaq Yığım məhsulu istisna olmaqla). Əlaqəli şəxs: Şahmar Alı-zadə, əlaqə nömrəsi +994552238789

## 2. İştirak Qaydaları

2.1. Lotereya müddəti ərzində ASC "Xalq" Bankında Lotoreya şərtlərinin 1.12-ci bəndində qeyd olunan lotereya obytektini əldə edən, müddətini uzadan 18 yaşına çatmış, Azərbaycan Respublikası vətəndaşları "Əmanət" lotereyasında iştirak edə bilərlər. Bankda "Uşaq Yığım" əmanət məhsulu üzrə yerləşdirilmiş əmanətlər lotereyada iştirak hüququ vermir.

2.2. Lotereyada iştirak üçün müştəri "XalqOnline" mobil bankçılıq tətbiqində ona təqdim olunan xüsusi pəncərədə lotereya şərtləri ilə tanış olub, müvafiq düymə vasitəsilə iştirakını təsdiq etməlidir.

2.3. Lotereyada hər tiraj üzrə həmin tirajın keçirilmə dövrünün 4.1-ci bəndlə sonuncu günü kimi müəyyən olunmuş tarixə aktiv olan əmanətlər iştirak edir.

2.4. Lotereya dövründə xitam verilmiş, əmanət müqavilələri üzrə hesablanmış lotereya şansları ləğv edilir.

## 3. Şansların hesablanması

3.1. Lotereya müddəti ərzində 2.1-ci bəndin tələblərinə riayət olunmaqla əmanətin artırılma və ya azaldılmadan sonrakı qalıq hissəsi üzrə Bankın Bakı və Sumqayıt şəhərlərindəki filiallarında yerləşdirilmiş əmanətin hər tam 500 AZN və ya 300 USD, digər regionlardakı filiallarında yerləşdirilmiş əmanətin hər tam 250 AZN və ya 150 USD məbləğində hissəsi 1 şans (bir lotereya bileti bir şansa bərabər tutulur) qazandırır.

3.2. Lotereya çərçivəsində Bankın filialları 5 (beş) qrupa (bundan sonra "Filial qrupu") bölünür:

| **1-ci Filial qrupu** | | **2-ci Filial qrupu** | | **3-cü Filial qrupu** | | **4-cü Filial qrupu** | | **5-ci Filial qrupu** | |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Filial** | **Kod** | **Filial** | **Kod** | **Filial** | **Kod** | **Filial** | **Kod** | **Filial** | **Kod** |
| Baş filial | 100 | Gəncə filialı | 007 | Zaqatala filialı | 001 | Xaçmaz filialı | 011 | Neftçala filialı | 004 |
| Mərkəz filialı | 008 | Qazax filialı | 015 | İsmayıllı filialı | 013 | Şabran filialı | 012 | Cəlilabad filialı | 005 |
| Sahil filialı | 009 | Şəmkir filialı | 022 | Şamaxı filialı | 018 | Qusar filialı | 016 | Lənkəran filialı | 014 |
| Neftçilər filialı | 010 | Tovuz filialı | 028 | Şəki filialı | 019 | Quba filialı | 017 | Şirvan filialı | 021 |
| Əhmədli filialı | 020 | Mingəçevir filialı | 003 | Yevlax filialı | 006 | Siyəzən filialı | 024 | Göyçay filialı | 027 |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| 20 Yanvar filialı | 023 | | | | | | | | |
| Yubiley filialı | 025 | | | | | | | | |
| Ağ Şəhər filialı | 026 | | | | | | | | |
| Mərdəkan filialı | 029 | | | | | | | | |
| Sumqayıt filialı | 002 | | | | | | | | |

3.3. 1-ci, 2-ci, 3-cü tirajda qaliblər hər bir Filial qrupu üzrə ayrı-ayrılıqda müəyyən edilir.

3.4. Lotereya müddəti ərzində 1 müştəri 1-ci Filial qrupunda yerləşdirilmiş əmanətlər üzrə maksimum 300 şans, 2-5-ci filial qruplarının hər birində isə maksimum 600 şans qazana bilər.

3.5. Müştərinin müxtəlif filial qruplarına aid filiallarda bağlanmış və lotereya şərtlərinə cavab verən əmanət müqavilələri olduqda, hər bir filial qrupu üzrə formalaşmış şanslar müvafiq olaraq aid olduğu filial qrupu üzrə keçirilən uduşlarda iştirak hüququ verir.
Məsələn: Müştəri 1-ci tirajda Quba filialında (4-cü qrup) 2000 AZN məbləğində əmanət yerləşdirməklə 8 şans, Sumqayıt filialında (1-ci qrup) isə 3500 USD məbləğində əmanət yerləşdirməklə 11 şans əldə etmişdir. Bu halda müştəri 1-ci qrup üzrə keçirilən tiraj uduşlarında 11 şans, 4-cü qrup üzrə keçirilən uduşlarda isə 8 şans ilə iştirak edir.
Müştəri digər filial qrupları (2-ci, 3-cü və 5-ci qruplar) üzrə keçirilən uduşlarda şansı olmadığı iştirak hüququna malik deyildir.

3.6. Şanslar gündəlik hesablanır və tam ədədlə aşağı məbləğə yuvarlaqlaşdırılır (Məsələn: Müştəri 1-ci Filial qrupuna aid olan filialda lotereya müddətində 2400 AZN məbləğində "Müddətli" əmanət yerləşdirərsə, bu məbləğ ona 4 şans qazandıracaq).

3.7. Lotereya bileti qismində 10 (on) simvollu unikal elektron kod çıxış edir. Misal: UH9I022874

3.8. Lotereya bilet(lər)i elektron qaydada iştirakçının "XalqOnline" mobil tətbiqində yaradılmış şəxsi kabinetinə göndərilir və orada lotereya biletinin nömrəsi (identifikasiya kodu) və ümumi biletlərin sayı barədə məlumatlar əks olunur.

## 4. Tirajlar və uduş fondu

4.1. Lotereya 4 tirajdan ibarətdir: 1-ci tiraj 01 aprel 2026-cı il – 30 iyun 2026-cı il tarixinədək, 2-ci tiraj 01 iyul 2026-cı il – 30 sentyabr 2026-cı il tarixinədək, 3-cü tiraj 01 oktyabr 2026-cı il – 30 dekabr 2026-cı il tarixinədək, 4-cü tiraj 01 aprel 2026-cı il – 30 dekabr 2026-cı il tarixinədək olan dövrü əhatə edir.

4.2. Tirajlar üzrə uduş fondunun oynanılması: 1-ci tiraj üzrə 10 iyul 2026-cı il, 2-ci tiraj üzrə 12 oktyabr 2026-cı il, 3-cü və və 4-cü tirajlar üzrə 12 yanvar 2027-ci il.

4.3. 1-ci, 2-ci və 3-cü tirajların hər birində hər Filial qrupu üzrə 3 ədəd 5 000 AZN-lik pul mükafatı, 5 ədəd 1 000 AZN-lik pul mükafatı, 7 ədəd 500 AZN-lik pul mükafatı oynanılır. 4-cü tirajda isə 1-ci Filial qrupu üzrə 1 ədəd 50 000 AZN-lik pul mükafatı, 2-5-ci Filial qrupları (birlikdə) üzrə 1 ədəd 50 000 AZN-lik pul mükafatı oynanılır.
4.4. Qalib olmamış, müqavilələri aktiv olan iştirakçılar cari tiraj və növbəti tirajların bütün uduşlarında iştirak edə bilərlər.
4.5. Müştəri 1-ci, 2-ci və 3-cü tiraj üzrə ümumilikdə yalnız 1 dəfə qalib ola bilər.
4.6. 4-cü tirajda lotereya şərtlərinə cavab verən aktiv əmanəti olan bütün iştirakçılar əvvəlki tirajların qalibləri də daxil olmaqla iştirak edir.
4.7. Müştəri 4-cü tiraj üzrə yalnız 1 dəfə qalib ola bilər.
4.8. Lotereyanın uduş fondu:

| Mükafat | Say | Dəyəri (1 əd.) |
|---|---|---|
| 50 000 AZN-lik pul mükafatı | 2 | 50 000 AZN |
| 5 000 AZN-lik pul mükafatı | 45 | 5 000 AZN |
| 1 000 AZN-lik pul mükafatı | 75 | 1 000AZN |
| 500 AZN-lik pul mükafatı | 105 | 500 AZN |

4.9. Lotereyanın uduş fondu cəmi tutulmalar xaric 452 500 AZN təşkil edir.
4.10. İştirakçıların sayı mükafat sayından az olarsa uduş fondunun qalıq hissəsi Bankın sərəncamında qalacaq.
4.11. Uduş fonduna əlavə vəsaitin qoyulması nəzərdə tutulmamışdır.

## 5. Əlavə şərtlər

5.1. Lotereyada Bank əməkdaşları və aidiyyəti şəxslər iştirak etmir.

## 6. Uduş fondunun oynanılması və qaliblər

6.1. Qaliblər 2026-cı ilin 10 iyul və 12 oktyabr, habelə 2027-ci ilin 12 yanvar tarixlərində Bankın Bakı şəh., İnşaatçılar prospekti 22 L ünvanında yerləşən Baş ofisində tiraj komissiyasının üzvlərinin iştirakı ilə, xüsusi proqram təminatı vasitəsilə təsadüfi seçimlə müəyyən olunacaq.
6.2. Biletlərin siyahısı proqrama daxil ediləcək ("Excel" proqramının "Macros" funksiyasından istifadə olunacaq), "Start" düyməsi basılacaq və qaliblər müəyyən olunacaq. Qaliblərin adları və soyadları, bilet nömrəsi, , müştəri (CİF) kodları, əmanət müqavilələrinin nömrələri "Excel" faylında qeyd olunacaq.
6.3. Tirajlar oynanıldıqdan sonra qaliblərə SMS və / və ya "XalqOnline" mobil tətbiqindən bildiriş vasitəsilə məlumat göndəriləcək.

6.4. Stimullaşdırıcı lotereyanın şərtləri və uduş fondunun oynanılmasının nəticələri (lotereya biletlərinin identifikasiya nömrələri və onların hər birinə düşən uduşlar) Bankın korporativ internet saytında (www.xalqbank.az), sosial şəbəkələrdəki səhifələrində (www.instagram.com/xalqbank_ , www.facebook.com/xalqbankasc ) və KİV–də 5 iş günü ərzində dərc olunacaq.
6.5. Uduşlar qalib şəxsin mükafatı əldə etmək məqsədilə 6.7-ci bənddə göstərilən qaydada Banka müraciət etdiyi tarixdən etibarən 30 (otuz) iş günü müddətində sahiblərinə təqdim edilir.
6.6. Lotereyanın 1-ci, 2-ci, 3-cü tirajlarında qalib olan şəxslər mükafatı əldə etmək üçün uduşlu biletin aid olduğu əmanət müqaviləsinin rəsmiləşdirildiyi Bank filialına, 4-cü tirajda qalib olan şəxs isə Bankın Baş ofisinə (Azərbaycan Respublikası, Bakı şəhəri, Yasamal rayonu, 494-cü məhəllə, İnşaatçılar prospekti, 22 L) şəxsiyyət vəsiqəsi ilə yaxınlaşmalıdırlar. Qalibin şəxsiyyəti Bank tərəfindən eyniləşdirildikdən sonra uduşun tam məbləği (mükafat) iştirakçının cari hesabına köçürülməklə sonuncuya verilir (ödənilir). Uduşlara dair hesablanacaq vergilər Bank tərəfindən ödənilir.
6.7. Qaliblər, uduşların elan olunduğu tarixdən sonrakı 7-ci (yeddici) iş günündən başlamaqla, lakin ən geci həmin tarixdən 90 (doxsan) iş günü ərzində uduşu əldə etmək üçün 6.6-cı bənddə qeyd olunmuş qaydada Banka müraciət etməlidirlər. Bu zaman qalib şəxsin öz şəxsiyyətini təsdiq edən sənədi təqdim etməsi kifayətdir (bu qayda uduşlu lotereya biletlərinin qəbuluna (təsdiqinə) bərabər tutulur). Qalib şəxs tərəfindən qeyd edilən dövr ərzində Banka müraciət olunmadıqda, uduş Bankın sərəncamında qalır.
6.8. Qalib olan şəxs uduşu özü əldə edə bilmədiyi halda, onun nümayəndəsi notarial qaydada təsdiq edilmiş müvafiq səlahiyyəti nəzərdə tutan etibarnaməni Təşkilatçıya təqdim etməklə mükafatı əldə edə bilər.